# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

10 oktyabr 2019-cu il

Cümə axşamı

№ 39 (3454)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernator müavini Anatoli Voronovski, Soçi şəhərinin meri Aleksey Kopayqorodski və digər rəsmi şəxslər qarşılayıblar.

Oktyabrın 3-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Prezident Vladimir Putin Prezident İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Sonra Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında görüş olub.

Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin təkbətək söhbət ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Soçidə Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarının müxbirlərinin suallarını cavablandırıb.

Oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

"Valday" Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Veliki Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Elə klub adını da buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilən klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işində 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak ediblər. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar.

Sessiyada əvvəlcə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.

Dövlətimizin başçısı plenar sessiyaya dəvətə görə Rusiya Prezidentinə minnətdarlığını bildirib, Rusiya-Azərbaycan münasibətlərinin inkişafına nəzər salıb.

Cənab Prezident çıxışında Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə qurulduğunu, ölkələrimiz arasında fəal siyasi dialoqun olduğunu, ticari-iqtisadi, hərbi-texniki və digər sahələrdə əlaqələrin inkişafını xüsusi vurğulayıb. Dövlətimizin rəhbəri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı danışaraq onun yalnız ölkəmizin ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasını qeyd edib və bu təcavüzkar dövlətin rəhbərliyinin populist çıxışlarını, siyasi oyunbazlığını darmadağın edən kəsərli cavab verib:

-Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi.

Sessiyada çıxış edən İordaniya Kralı II Abdulla, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Filippin Prezidenti Rodriqo Roa Duterte "Valday" Beynəlxalq Klubunun əhəmiyyətinə toxunublar, Asiya regionunun dünyada artan rolundan, terrorizmin doğurduğu təhdidlərdən, dünyada gedən qlobal siyasi və iqtisadi proseslərdən bəhs ediblər.

Daha sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırıblar.

Oktyabrın 3-də Soçidə dövlət başçılarının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri başa çatıb.

**Dövlətimizin başçısı oktyabrın 3-də Azərbaycan Respublikasının təhsil işçilərinin mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 4-də qanunvericiliyin inkişafı sahəsində xidmətlərinə görə Sabir Kamal oğlu Hacıyevə "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında sərəncam imzalayıb.***

**Ölkəmizin rəhbəri oktyabrın 4-də Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən Dünya Kuboku uğrunda yarışlarda qələbə qazanması münasibətilə Qrossmeyster Teymur Rəcəbova təbrik məktubu göndərib.**

***Oktyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.***

**Dövlətimizin başçısı oktyabrın 8-də Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş Naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

***Ölkəmizin rəhbəri oktyabrın 8-də Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş Naziri təyin olunması haqqında sərəncam imzalayıb.***

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanı qəbul edib.**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona Rusiya dövlətinin və xalqının tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları bu yaxınlarda keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti iclasının əhəmiyyətinə toxunaraq, Soçidə ölkə başçıları arasında aparılan danışıqların strateji tərəfdaşlığa əsaslanan ikitərəfli dostluq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verdiyini vurğulayıb, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Söhbət zamanı Prezident İlham Əliyev və Prezident Vladimir Putin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak ediblər.**

## NAZİR DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI İLƏ GÖRÜŞÜB



**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 5-də DİN Daxili Qoşunlarının Quba rayonunda yerləşən hərbi hissəsində olub.**

Qarşılanma mərasimindən sonra hərbi hissənin qərargahında "Şərəf kitabını" imzalayan nazir əsgər və hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq-quruculuq işləri ilə yaxından tanış olub.

Sonra sıra meydanında əsgər və hərbi qulluqçular qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov yaxın tariximizə qısa ekskurs edərək müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, ulu öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib.

Ölkə Prezidenti cənab İlham Əliyevin respublika Daxili İşlər Nazirliyinin və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində müstəsna rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir, DİO-nun zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, məhz belə ali diqqət və qayğı sayəsində bu gün Daxili İşlər Nazirliyi, onun öncül qurumlarından olan Daxili Qoşunların müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, şəxsi heyətin iş, eləcə də sosial-məişət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

*Ardı 2-ci səhifədə.*

# VƏTƏNDAŞ MƏMNUNLUĞUNA XİDMƏT EDƏN NÖVBƏTİ ADDIM

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov cinayət və hadisələrlə bağlı məlumatlara baxılması işində operativliyin yüksəldilməsinə, xüsusən vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən daha bir əmr imzalayıb.**

**Əmrə əsasən, cinayətlər barədə «102» Xidmətinə məlumat verən şəxslər fakt üzrə ilkin ərizənin alınması üçün polisə dəvət olunmayacaq. Bu qəbildən müraciətlərlə əlaqədar sənədləşdirmə onlar üçün rahat şəraitdə, yaşadıqları və ya olduqları ünvana gələn polis əməkdaşları tərəfindən aparılacaqdır.**

**Bütövlükdə insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının, qanuni mənafelərinin və mülkiyyətinin hüquqazidd əməllərdən qorunması sahəsində daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər davam edir və müvafiq yeniliklər haqda ictimaiyyət mütəmadi məlumatlandırılacaqdır.**

***Daxili İşlər Nazirliyi***

# NAZİR DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI İLƏ GÖRÜŞÜB

*Əvvəli 1-ci səhifədə.*

Nazir onu da qeyd edib ki, bu gün ölkəmizdə demokratik prinsiplər əsasında insan hüquqlarının təmin olunması, qorunub-saxlanılması istiqamətində mühüm işlər görülür. Vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin edilməsi məqsədilə ölkə rəhbərliyinin dövlət qurumları, o cümlədən Daxili İşlər Nazirliyi qarşısında qoyduğu konkret vəzifələrə uyğun olaraq, müvafiq qərarlar verilir, nazirliyin rəhbərliyi tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşlar qəbul edilir, onların hər bir müraciəti üzrə lazımi tədbirlər görülür, qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həllini tapır.



Şəxsi heyətə tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının əməkdaşları, o cümlədən Daxili Qoşunların hərbi qulluqçuları göstərilən ali diqqət və qayğıya cavab olaraq sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz nümunəvi xidməti ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır.



Sonda hərbi hissənin əsgər və hərbi qulluqçuları təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Oktyabrın 9-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Daxili İşlər naziri, general-leytenant Vaxtanq Qomelaurinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan nazir V.Eyvazov gürcü həmkarını bu vəzifəyə təyinatı münasibətilə təbrik edib, xalqlarımız arasındakı dostluğun qədim tarixi köklərə malik olduğunu xatırladıb, hər iki ölkə rəhbərliyinin əlaqələrimizin daha da genişləndirilməsinə böyük önəm verdiklərini qeyd edib, bu münasibətlərin ölkə prezidentlərinin siyasi iradəsinə, müəyyənləşdirilmiş strategiyaya uyğun uğurla inkişaf etdiyini, Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın, xüsusilə transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə fəaliyyətin dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyini nəzərə çatdırıb.

Sonra mövcud kriminogen durum, cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunmasında əldə olunan nəticələr, xidmətin beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə qonaqlara məlumat verilib.

Qeyd olunub ki, ötən illər ərzində nazirliklərin rəhbər vəzifəli şəxsləri, sərhədyanı bölgələrin polis orqanlarının rəisləri səviyyəsində qarşılıqlı səfərlər, cinayətkarlıqla mübarizədə birgə səylərin əlaqələndirilməsinin daha da yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsinin prioritet istiqamətlərinin müzakirəsi praktikası yaranıb. DİN-lər arasında əməkdaşlığın hüquqi bazasının məqsədyönlü və ardıcıllıqla möhkəmləndirildiyini qeyd edən nazir imzalanmış sənədlərin, xüsusilə 2002-ci ilin aprelində Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərin digər növlərinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair imzalanmış müqavilənin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində əlaqələrin inkişafına təkan verdiyini bildirib.

Nazir V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və yaxın qonşularımız miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Gürcüstanın Daxili İşlər naziri Vaxtanq Qomelauri səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, mehriban qonşu və yaxın dost olan Azərbaycanla bütün sahələrdə, o cümlədən daxili işlər orqanları arasında əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*9 oktyabr 2019-cu il.*

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il oktyabr ayının 26-da Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov tərəfindən 2019-cu il oktyabr ayının 19-da Bərdə Rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏNİN SƏMƏRƏLİLİYİ ARTIRILIR

**Oktyabrın 4-də Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi ilə birlikdə insan alverinə qarşı səmərəli mübarizə tədbirlərinin gücləndirilməsinə dair dəyirmi masa keçirib.**

Dəyirmi masanın təşkilatçıları və iştirakçılar bu sahədə qazandıqları bilik və təcrübələrini bölüşüb, qarşılaşdıqları əsas problemlər haqda fikir mübadiləsi aparıblar. İştirakçılar insan alveri və onun yaratdığı risklər barədə ictimaiyyəti məlumatlandırmaq üçün maarifləndirmə işinin vacibliyini vurğulayıblar.

BMqT-nin Azərbaycandakı nümayəndəliyinin təmsilçisi Mariya Nikolovska hazırda bu qurumun İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi ilə birgə ABŞ Dövlət Departamentinin Narkotiklər və Hüquq Mühafizəyə dair Beynəlxalq Məsələlər üzrə Bürosu tərəfindən maliyyələşdirilən "Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi – IV Faza" layihəsi çərçivəsində insan alveri ilə bağlı məlumatlandırma mövzusunda aparılan ictimai kampaniya haqqında məlumat verib. Qeyd olunub ki, kampaniya çərçivəsində ictimaiyyətin diqqətini bu sosial bəlaya cəlb etmək, hədəf auditoriyasının biliklərini artırmaq üçün insan alveri qurbanlarının real hekayələrini təqdim edən videoçarx və məqalələr hazırlanaraq yayılıb. Azərbaycan və ingilis dillərində hazırlanan materiallar onlayn media kanalları vasitəsilə də yayımlanır.

Hazırda Bakı Metropoliteninin stansiyalarında müxtəlif növ istismar, ilk növbədə də əmək və cinsi istismar və onlarla əlaqəli zorakılıqları əks etdirən böyük plakatlar nümayiş olunur.

Sonda insan alveri qurbanlarının real hekayələri əsasında hazırlanmış videoçarx nümayiş etdirilib.

**C.Natiq**

# BİR TONDAN ÇOX NARKOTİK VASİTƏ MƏHV EDİLİB

**Məhkəmələrin qərarları ilə müsadirə olunmuş bir tondan çox müxtəlif narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları oktyabrın 4-də Binəqədi rayonundakı Bünyad Sərdarov adına maşınqayırma zavodunun ərazisində məhv edilib.**

Ümumilikdə 579 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 1 ton 61 kiloqramdan çox müxtəlif növ narkotik vasitə və psixotrop maddə - 515 kiloqram 979 qram marixuana, 144 kiloqram 965 qram heroin, 328 kiloqram 848 qram tiryək, 62 kiloqram 726 qram həşiş qətranı, 2 kiloqram 79 qram kokain, 11 kiloqram 755 qram - 71 min 773 ədəd psixotrop maddə, o cümlədən 4599 çətənə bitkisi yandırılaraq məhv edilib. Müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin qara bazarda ümumi dəyəri 35 milyon manat təşkil edir.

Məlumat verilib ki, bu ilin səkkiz ayında hüquq-mühafizə orqanları tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 3309 fakt aşkarlanıb. Bu faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 842 kiloqram 28,4 qram olan müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və 257 ədəd həb, 568 millilitr metadon suyu müsadirə edilib. Bundan başqa, qanunsuz dövriyyədən çəkisi 91 kiloqram 183,7 qram prekursor, 87 kiloqram 855,9 qram digərləri, 236,2 güclü təsir edən maddə, 12 kiloqram 500 qram zəhərli maddə götürülüb. Müsadirə olunan narkotik vasitələrin 596 kiloqram 884 qramını (32,4 faiz) marixuana, 245 kiloqram 876,1 qramını (13,3 faiz) tiryək, 794 kiloqram 786,4 qramını (43,1 faiz) heroin, 21 kiloqram 433,1 qramını (0,16 faiz) həşiş, 4 kiloqram 009,185 qramını (1,1 faiz) kokain təşkil edib.

Eyni zamanda, Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Sərhəd Xidməti və digər aidiyyatı qurumların nümayəndələrinin iştirakı ilə yaş kütləsi 123 ton 247 kiloqram 609,225 qram olan 242 min 364 ədəd yabanı halda bitmiş narkotik xassəli bitkilər aşkarlanaraq müvafiq qaydada məhv edilib. Yaş kütləsi 6 ton 498 kiloqram 600 qram olan 3763 ədəd çətənə və xaşxaş bitkisi prosessual tədbirlərin görülməsi üçün istintaq orqanlarına verilib.

Diqqətə çatdırılıb ki, bu dövrdə cinayət məsuliyyətinə 2234 nəfər cəlb edilib. Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin 2018-ci il dekabrın 31-nə olan məlumatına əsasən, mərkəzdə 31 min 432 nəfər narkotik istifadəçisi qeydiyyatdadır. Onlardan 26 min 346-sı dispanser, 5086 nəfəri isə profilaktik qeydiyyatda olanlardır.

***N.Cavadov,***
***polis mayoru***

# BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurum və Azərbaycan Xalq Cəbhəsi Partiyası 50 nəfərin iştirakı ilə piket keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişdir.

Müraciətə baxılaraq, toplantının təşkilatçılarına, tədbirin oktyabrın 8-i saat 15.00-dan 16.00-dək Bakı Şəhər İcra Hakimiyyəti ilə Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə keçirilməsi barədə məlumatlandırılmışdır.

Piket ərəfəsində təşkilatçılar Bakı Şəhər Baş Polis İdarəsinə dəvət olunaraq aidiyyəti qanunvericilik aktlarının tələbləri nəzərlərinə çatdırılmış, tədbirin dinc, qanuni qaydada, yazılı xəbərdarlıqda göstərilmiş və toplantıya qoyulmuş şərtlərə uyğun təşkil olunması barədə xəbərdar edilmişlər.

Lakin onlar "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin V və 12-ci maddəsinin III hissələrinin tələblərini kobud surətdə pozaraq oktyabrın 8-i tədbir yerinə razılaşdırılmış vaxtdan qabaq toplaşmış, piketə dəstək adı altında qanunsuz aksiyalarına qoşulmaq barədə vətəndaşlara çağırışlar etmiş, toplantıya 50 nəfərdən çox tərəfdarını cəlb etməklə müəyyən olunmuş ərazidən kənara çıxmağa, qanunsuz küçə yürüşü keçirməyə cəhd göstərmişlər.

Nəticədə həmin ərazidə nəqliyyatın hərəkəti iflic olmuş, piyadaların sərbəst gediş-gəlişinə maneçilik yaranmış, ətrafdakı insanlara qarşı kobudluğa və digər qanunazidd hərəkətlərə yol verilmişdir.

İctimai asayişin pozulması ilə müşayiət olunan küçə yürüşü iştirakçılarının hüquqazidd əməllərinin qarşısı alınmışdır.

Piket üçün müəyyən edilmiş vaxtdan xeyli qabaq müxtəlif yerlərdə toplaşaraq hüquq qaydasını pozmuş 17 şəxs xəbərdar edilmiş, 4 nəfər barəsində inzibati protokol tərtib olunmuşdur. Həmçinin, polisin qanuni tələblərinə tabe olmayaraq küçə yürüşü keçirməyə cəhd edən 5 nəfər haqqında toplanmış inzibati materiallar məhkəməyə göndəriləcək, sərxoş halda olan və üzərində soyuq silah aşkarlanıb götürülmüş daha bir piket iştirakçısının əməlinə hüquqi qiymət veriləcəkdir.

*8 oktyabr 2019-cu il.*

# YAŞAYAQ, İNSAN OLMAQ ÜÇÜN

***"İnsan gərək özünə hesabat verə ki, mən bu həyatı necə yaşamışam. Gərək keçən illərə nəzər salanda peşman olmayasan. Özünə hörmət edən hər kəs üçün bu ömür payı ən böyük imtahandır. Bax, bu imtahandan çıxan adama insan deyirlər. Biz də insan olmaq üçün yaşadıq, yaşayırıq..."***

Bu sözləri deyən polis veteranımız 1954-cü ildə oktyabrın 4-də Astara şəhərində müəllim ailəsində doğulub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsini bitirib. Yenə doğma rayona qayıdıb, 3 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib.

**İstefada olan polis polkovniki Kamal İmamverdiyev** 1983-cü ildən daxili işlər orqanlarında xidmətə başlayıb və ömrünün 30 ildən çoxunu bu şərəfli peşəyə həsr edib. İlk işi Yasamal RPŞ 2-ci PB-də Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin inspektoru olub. Sonralar həmin sahə üzrə baş inspektor, rəis müavini vəzifələrində çalışıb. 1995-ci ildən DİN Baş İctimai Təhlükəsizlik İdarəsində şöbə rəisi vəzifəsinə irəli çəkilib. Sonralar Polis Akademiyasında qiyabi təhsil alıb. Xidmət dövründə Kamal



müəllim müxtəlif televiziya və radio kanallarında, qəzet və jurnallarda, dünyanın bir çox ölkələrində bu xidmət sahəsinin təkmilləşdirilməsi, uşaq hüquqlarının müdafiəsi, normativ hüquq aktlarının hazırlanması, ailə və məişət zorakılığı ilə bağlı layihələrlə çıxışlar edib.

Uzun illər boyu polisdə vicdanla, qüsursuz və yüksək peşəkarlıqla xidmət edən Kamal İmamverdiyev dəfələrlə müxtəlif mükafatlarla təltif olunub. 2013-cü ilin noyabrında son yaş həddi ilə əlaqədar təqaüdə çıxıb. DİN Veteranlar Şurasının üzvüdür. Onu tez-tez polis veteranlarımızın sırasında görüşlərdə görmək olar, gənc həmkarları bu gün də onun təcrübəsindən bəhrələnirlər.

İki övlad atasıdır, dörd nəvənin babasıdır. Əslində isə tanıyanlar yaxşı bilir, 65 yaşlı Kamal İmamverdiyev çoxuna ataliq, babalıq edib. Onun dəyərli nəsihətləri, əsl nümunə olan həyat yolu çoxlarına örnəkdir, çoxları bu cür yaşamağı ondan öyrənməlidir.

***Belə həyatı yaşayanlar, belə ləyaqətli insanlar üçün 65 il bir su içim kimidir...***

***Yeri gəlmişkən, çox arzu edərdik ki, gənclərlə, kollektivlərlə görüşə belə ləyaqətli veteranlar getsinlər. Onların sözünün, nümunəsinin, varlığının özü bir təbliğatdır, təşviqdir...***

*V.Ruslan*

# VƏTƏNDAŞ DA FƏAL OLSA...

**İctimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir. Lakin cinayətə zəmin yaradacaq halların qarşısı vaxtında alınmazsa baş verə biləcəklərin sayını təsəvvür etmək elə də çətin deyil.**

Cinayətlərin əksəriyyəti polis olmayan yerdə baş verir. Niyə? Çünki əsas vəzifəsi ictimai qaydanı qorumaq və ictimai təhlükəsizliyi təmin etmək, cinayətlərin və digər xətaların qarşısının alınması üçün tədbirlər görmək, şəxsiyyəti, insan hüquq və azadlıqlarını və mülkiyyəti hüquqa zidd əməllərdən qorumaq olan polis vətəndaşa təhlükədən daha yaxındır.

Baş verə biləcək cinayətlərin qarşısını almaq və ictimai fəallığı artırmaq üçün paytaxtda və bölgələrdə polisin apardığı maarifləndirmə tədbirləri də mühüm əhəmiyyət kəsb edir. Bir neçə gün öncə metroda sərnişinlərin rahatlığını, əxlaq qaydalarını pozan, təhqiramiz ifadələrə yol verən şəxs ictimai qınaq obyekti olub və onu elə vətəndaşlar polisə təslim ediblər.

"İctimai qaydaları "çeynəyən" hallara qarşı barışmaz mövqe sərgiləyən vətəndaş həm də dövlətə və dövlətçiliyə sədaqətini nümayiş etdirir",- deyən **Metropolitendə Polis Şöbəsinin rəisi, polis polkovniki Samir Hüseynov** metrodan kənar yerlərdə də belə mənfi halların yaşanmaması üçün vətəndaş fəallığının artırılmasının vacibliyini önə çəkdi. O, həm də hadisə barədə bunları dedi: "Gənclik" stansiyasında xidmət aparan polis baş serjantı Anar Almədətov platformada səs-küy eşidib və ora yaxınlaşıb. İki şəxs bir nəfəri vaqonda nalayiq hərəkət etdiyinə görə saxladıqlarını,



digər sərnişinlərin də təpkisi ilə onu vaqondan çıxardıqlarını deyib. Həmin şəxs araşdırma aparılması üçün polis məntəqəsinə dəvət edilsə də qanun keşikçisinin tələblərinə məhəl qoymayıb. Lakin o, Polis Şöbəsinə gətirilib. Araşdırmalar zamanı məlum olub ki, orta dərəcəli sərxoşdur. O, metroya daxil olmaq üçün polis əməkdaşının yoxlamasından keçərkən özünü çox "ağıllı" aparıb və diqqət çəkməyib. Faiq Abbasəliyev əvvəllər cinayət məcəlləsinin müvafiq maddələri ilə iki dəfə məhkumluq həyatı yaşayıb. Həmin şəxsin cərimələnməsi üçün tərəfimizdən müfaviq protokol tərtib olunub."

Yeri gəlmişkən, bu bəd əməlin də böyümədən, fəsadlar törətmədən qarşısının alınması üçün yüksək vətəndaşlıq mövqeyi, hətta təhqir olunduqlarına rəğmən səbr, dözüm və təmkin nümayiş etdirən **Məmmədcəfər və Ələkbər Kazımov** qardaşları Metropolitendə Polis Şöbəsinə dəvət edilmiş, polis polkovniki Samir Hüseynov onlara minnətdarlığını bildirmişdir.

Bəzən ictimai təhlükəli hesab etmədiyimiz əməllərin sonunun böyük bir faciə ilə bitməsini istəmiriksə, fəallığımızı artırmalı, biganəliyə, laqeydliyə son verməliyik. Çünki hər birimizin vətəndaş mövqeyi dövlətçiliyimizin dayaqlarının möhkəmlənməsinə və Azərbaycanımızın inkişafına xidmət edir.

*Hafiz Təmirov,*
*polis mayoru*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Kütləvi informasiya vasitələrində Bakı şəhər Baş Polis İdarəsinin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin "facebook" sosial şəbəkəsində "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi tərəfindən ölümlə təhdid olunmasına dair informasiyalar yayılmışdır.

Belə ki, "Evez Vahidoviç" adlı sosial şəbəkə istifadəçisi "facebook" sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə qeyd olunan polis əməkdaşının öldürülməsinə görə 10 min manat məbləğində pul mükafatı verəcəyini vəd etmişdir.

Qeyd olunan hərəkətlərdə öldürməklə hədələmə əməlinin tərkib əlamətləri olduğundan fakta görə Cinayət Məcəlləsinin 134-cü (öldürməklə hədələmə) maddəsi ilə cinayət işi başlanmışdır.

Cinayətin xarakterinə görə dövlət və cəmiyyətin mənafeyinə qəsd etməsini, işin xüsusiyyətləri, ibtidai araşdırmanın maraqları nəzərə alınmaqla cinayət təqibinin səmərəliliyini, eləcə də iş üzrə ibtidai istintaqın tam, hərtərəfli və obyektiv həyata keçirilməsini təmin etmək məqsədi ilə istintaqın aparılması Bakı şəhər prokurorluğunun İstintaq İdarəsinə tapşırılmışdır.

Hazırda iş üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*3 oktyabr 2019-cu il .*

# CİNAYƏT CƏZASIZ QALMAYANDA

***Vətəndaşlar hər hansı bir qanun pozuntusu, cinayətlə üzləşdiyi zaman dərhal polisə üz tutur, bu qurumun əməkdaşlarından kömək gözləyirlər. Çünki bilirlər ki, polisə olunan müraciət cavabsız qalmır, istənilən hadisəyə operativ reaksiya verilir, hər hansı bir səbəbdən "isti izlər"lə açılması mümkün olmayan cinayətlərin açılması istiqamətində müvafiq zəruri istintaq-əməliyyat tədbirlər həyata keçirilir. Xüsusən ötən illərdən bağlı qalmış hesab olunan cinayətlərin açılması daim diqqət mərkəzindədir.***

Təəssüf ki, bəzi hallarda cinayət baş verdiyi və həmin əməli törədən şəxs məsuliyyətə cəlb olunub.

Belə ki, 2015-ci il mayın 31-də Mingəçevir şəhər sakini V.İbrahimovun evinə daxil olan maskalı şəxslər ona və həyat yoldaşına zor tətbiq edərək, müxtəlif xəsarətlər yetiriblər. Müraciət daxil olan kimi hadisə yerinə gələn polis əməkdaşları tərəfindən ətrafa baxış keçirilib, baş vermiş cinayətin detalları araşdırılıb, cinayətkarın müəyyən olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Lakin həmin vaxt cinayəti törədənləri yaxalamaq mümkün olmayıb. Aradan 4 il keçdikdən sonra anda açılmırsa, yaxud, üzərindən qısa vaxt keçirsə sosial şəbəkələrdə polis əməkdaşları barədə xoşagəlməz fikirlər paylaşılır. Amma belə halla üzləşən hər bir kəs başa düşməlidir ki, polisə cinayətin açılması üçün əsaslı dəlillər, təkzibolunmaz sübutlar toplamaq lazım gəlir.

Bir neçə gün öncə Mingəçevirdə baş vermiş bir cinayətin açılması da bu dediklərimizin bir sübutudur.

Şəhər Polis Şöbəsinin və DİN Kriminalistik Tədqiqatlar İdarəsinin əməkdaşları tərəfindən birgə keçirilmiş əməliyyat tədbirləri nəticəsində 4 il öncə törədilmiş quldurluğun üstü açılıb həmin əməli törədən şəxsin Zaur Məmmədyarov olduğu müəyyən olunub və o, məsuliyyətə cəlb edilib.

Bu fakt bir daha onu göstərir ki, polis bütün cinayətlərin açılması üçün hər zaman çalışır, öz xidməti borcuna daim sadiqdir. Elə bu hadisədə zərərçəkmiş V.İbrahimov bəlkə də ümidini üzmüşdü. Ancaq eşidənlərin, bilənlərin belə az qala unutduqları bu cinayət əməli polisin fədakar, yorulmaz xidməti, sayıqlığı nəticəsində açıldı.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# QAZDIĞI QUYUYA ÖZÜ DÜŞDÜ

**Yolu yaxşı tanımadığım üçün soraqlaşa-soraqlaşa gedirdim. Hərdən macal tapıb qəsəbə sakinlərilə də söhbətləşirdim. Hamı qəsəbədə yeni açılmış Polis Bölməsindən razılıq edir, ağızdolusu danışırdı. Deyirdilər ki, bölmə fəaliyyətə başlayan gündən qəsəbədə cinayətkarlıq azalıb, daha polisi axtarmağa, polisə pənah aparmağa ehtiyac qalmır, çünki indi polis onlara, necə deyərlər, təhlükədən də, problemlərdən daha tez çatır. Əslində, məni ora aparan səbəb də elə redaksiyamıza daxil olan minnətdarlıq məktubları idi...**



Bir növ adətkərdə olmuşdu asan pul qazanmağa. Onun tələsinə düşənlər də az deyildi. Artıq doqquz qurbanı vardı Eltonun. Onuncu qurbanını puşqaya salmağı gözləyirdi. Amma bu dəfə, çox gözləməli olacaq, deyəsən. Çünki özü nəfsinin tələsinə düşdü...

Elton hər dəfə müxtəlif bəhanələrlə tanıdığı adamların etibarından sui-istifadə edərək müəyyən miqdarda borca pul götürür, sonra isə aradan çıxırdı. Hər dəfə də gah arvadını xəstəxanadan çıxarmaq, gah da xəstə qohumuna, qonşusuna yardım etmə bəhanəsi ilə pulunu geri almaq üçün gələnləri get-gələ salırdı. Hətta mindiyi taksi sürücüsünə də min bir bəhanə uydururdu. Sən demə, dələduzluğu özünə peşə seçmiş Elton kefindən də qalmırmış. Əldə etdiyi qazancdan müxtəlif növ narkotik vasitə alıb kefinə kef qatırmış. Sonuncu dəfə isə onun kefinə Xəzər RPİ 3-cü PB-nin əməkdaşları əməlli-başdı soğan doğradılar...

Polis Bölməsinə daxil olan məlumatlar əsasında **rəis, polis mayoru Rahid Nağıyev** işi nəzarətə götürdü və dərhal əməliyyat-istintaq qrupu yaradıldı. Keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində növbəti ovunu gözləyən Elton özü qazdığı quyuya düşdü.

Əvvəlcə hər şeyi boynundan atsa da sonda gah nala, gah mıxa vurdu və əməllərini etiraf etdi. Polis əməkdaşlarının ona təqdim etdikləri tutarlı dəlil-sübutlar qarşısında aciz qalan Elton, törətdiyi əməlləri bircə-bircə danışdı...

*Teymur Əlizadə,*
*polis kapitanı*

# MARAQ DÜNYASI

### QAR OLMASA,.. QAR OLACAQ

Tokioda 2020-ci ildə keçiriləcək Olimpiya və Paraolimpiya Oyunlarının təşkilatçıları isti hava ilə mübarizə üçün kanoedə avarçəkmə meydançasında süni qardan istifadənin səmərəliliyini araşdırırlar.

Təşkilatçıların qarşısında duran ən vacib vəzifələrdən biri həm idmançılar, həm də tamaşaçılar üçün ciddi təhlükə yaradacaq istilərlə mübarizədir.

Həmin meydançada qar istehsal edəcək çox da böyük olmayan qurğuların yerləşdirilməsi planlaşdırılır. Belə qurğuların tonlarla qar istehsal etmək gücündə olacağı bildirilir.

Təşkilat komitəsinin rəsmi nümayəndəsi bəyan edib ki, süni qar gözlənilən səmərəni verərsə, bu qurğulardan Olimpiya və Paraolimpiya Oyunlarının keçiriləcəyi digər meydançalarda da istifadə olunacaq.

### BİR CƏHD, 18 UĞUR

Özbək abituriyent Jaxangir Muxammadkarimov eyni vaxtda 18 ali məktəbə qəbul olunub və ölkə tarixində özünəməxsus rekorda imza atıb. O, daha bir universitetdən cavab gözləyir.

Jaxangirin ali məktəblərinə qəbul olunduğu ölkələr sırasında Birləşmiş Ərəb Əmirlikləri, Malayziya, Koreya Respublikası, Rusiya və digər ölkələrin adı var. O isə İ.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin Daşkənddəki filialını seçib.

Xatırladaq ki, 2018-ci ildə bir özbək abituriyent dünyanın 14 ali məktəbinə qəbul olunmuşdu.

### YEYİLƏ BİLƏN...SAAT

İndoneziya şirkəti kəməri göbələkdən, korpusu ağacdan düzəldilmiş ekoloji təmiz saat hazırlayıb.

Layihənin müəllifi olan "Mycotech" şirkətinin nümayəndəsi bildirib: "Biz dünyada ilk dəfə olaraq ekoloji təmiz saat hazırlamışıq. Onun istehsalı zamanı istifadə edilən bütün məhsullar - yalnız saatın mexanizmi çıxılmaqla - təbiətdə çox asanlıqla parçalanır".

Ənənəvi dəri kəmərlərin hazırlanması zamanı insan orqanizmi üçün təhlükəli kimyəvi maddələrdən və rənglərdən istifadə edilir. İstehsal prosesində istifadə olunan su sonradan çaylara və digər su mənbələrinə axıdılır. Bundan əlavə, dəri istehsalı üçün nəzərdə tutulan mal-qara çoxlu miqdarda parnik qazları yaradır. Təklif olunan yeni innovasiyalı texnologiya bu çatışmazlıqlardan uzaqdır və ətraf mühit üçün təhlükəli deyil.

Bu texnologiyanın daha bir üstünlüyü istehsal prosesinin sürətidir. Belə ki, lazım olan göbələklərin yetişdirilməsinə cəmi beş gün vaxt lazımdır. Bundan əlavə, İndoneziya şirkəti həmin texnologiya vasitəsilə kənd təsərrüfatı tullantılarından tikinti blokları, lövhələr və mebel sənayesində istifadə edilən materiallar hazırlayıb.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Məqsədi də, hədəfi də bəllidir-Qələbə!




**Azərbaycan yenilməz idmançılar ölkəsidir. Bunu dünya etiraf edir. İdman tariximizə adlarını qızıl hərflərlə yazdıranların sırasında polislərimizin xüsusi yeri var. Onların polis olduqlarını hər kəs bilməsə də, getdikləri, yarışdıqları ölkələrdə azərbaycanlı, Azərbaycandan olduqlarını hamı bilir. Onların sayəsində üçrəngli bayrağımızın göylərə ucalması, himnimizin səslənməsi, ən mötəbər tribunalardan "Azərbaycan" nidalarının eşidilməsi insanı göz yaşlarına boğacaq, sözlə ifadə olunmayacaq bir qürur hissidir.**



Həmkarlarımız idmanda olduğu kimi, xidmətdə də peşəkardırlar. Vəzifələrinin də öhdəsindən layiqincə gəlir, vətəndaşların rəğbətini qazanır, bir sözlə, içdikləri anda daim sədaqət nümayiş etdirirlər.

**Polis polkovnik-leytenantı Mehman Fətəliyev**. Nisgili qazandığı uğurlarla təndir. Dünyanın harasında olursa-olsun, o nisgil ürəyinin başını göyüm-göyüm göynədir. Qazandığı hər bir qələbədə düşmənlərimizə ünvanlanmış mesaj var: "Bu gün tatamidə, sabah döyüş meydanında Qələbə bizimdir". Və bəlkə də Mehman kimi çempion oğul və qızlarımızı uğurların ən yüksək pilləsinə çəkən də bu təşnə, bu hiss, Qələbə arzusudur.

Təbiətən sakit və təmkinlidir həmkarım. Lakin yarışlarını izlədikdən sonra onun rəqibləri üzərindəki qələbələrdə ustalığının, şahidi oluruq.

Etiraf edək ki, bəzən idmançılar barəsində danışarkən onların təhsilə maraqlı olmadıqlarını xüsusi qabardırlar. Lakin Mehman Fətəliyevlə müsahibədən sonra qəti qərara gəldim ki, bu mövzuda ayrıca bir yazı ilə "Mübariz keşikdə"çilərin görüşünə gələk...

1981-ci ildə Sumqayıtda doğulub. Ata-babalarının doğulduğu Zəngəzuru, Qubadlını görməyib. Polis olmaq arzusuna valideynlərinin xeyir-duası qol-qanad verib. 1998-ci ildə 550 balla DİN-in Polis Akademiyasına qəbul olunub. Akademiyada sambo və cüdo idman növlərində keçirilən yarışlarda fərqlənib, peşəkar idmançı karyerasının formalaşmasında, özünün də dediyi kimi, akademiyanın mühüm rolu olub. O, Braziliya ciu-citsusu üzrə Azərbaycanda ilk dünya çempionudur. Həmkarımız ilk dəfə çempion adına isə Birləşmiş Ərəb Əmirliklərində Braziliya ciu-citsusu üzrə 2018-ci ildə keçirilən yarışda nail olub. Qrappling üzrə 2017-ci ildə ölkəmizdə keçirilən yarışda ikinci yerin sahibi olub. Bu ilin sentyabrında keçirilən "Open Moskva" beynəlxalq turnirində 92 kiloqram çəkidə yenə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb...

Akademiyanı bitirdikdən sonra Sumqayıtda, Bakının Nizami və Xəzər rayonlarında xidmət edib.

Həmkarımız bir müddət Nəsimi RPİ-nin DYPŞ-nin rəisi işləsə də ona daha məsuliyyətli bir görəv həvalə olunub və o, bu gün turistlərin də daha çox üz tutduğu Səbaildə DYPŞ-nin rəisidir.

Ciu-citsu və qrappling idman növləri üzrə "İdman ustası" olan həmkarımız rejiminə riayət etməklə yenə də hər səhər saat 07:00-dan 08:00-dək kimi məşq edir. Axşam məşqləri isə, əsasən, yarışlara hazırlıq məqsədi daşıyır. Fiziki və texniki imkanlarını daha da inkişaf etdirmək üçün axşam məşqlərində qatlaşdığı əziyyətlərin yalnız bir hədəfi var-gələcək yarışlarda da qələbə əldə etmək, bayrağımızı ucaltmaq.

*Hafiz Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS AKADEMİYASINDA VAKANT OLAN ZABİT VƏZİFƏLƏRİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR

## MÜSABİQƏ ELAN EDİR

– Dövlət və hüquq nəzəriyyəsi, Daxili işlər orqanlarında inzibati fəaliyyət, Daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyəti, Mülki hüquq, Cinayət hüququ, Cinayət prosesi və Kriminalistika kafedralarının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin hüquq təhsili üzrə magistr pilləsini bitirmiş mütəxəssislər);

– Dil hazırlığı kafedrasının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini ingilis dili ixtisası üzrə bitirmiş mütəxəssislər);

– Hərbi kafedranın müəllimi və baş müəllimi (bu vəzifələrə namizəd hərbi təhsil müəssisələrini və ya dövlət ali təhsil müəssisələrini hərbi ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəssislər);

– İnformasiya təhlükəsizliyi kafedrasının mühəndis-elektronçusu və mühəndis-proqramçısı (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin avtomatika və idarəetmə elektron texnikası, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə magistr pilləsini bitirmiş mütəxəssislər);

Mühəndis-elektronçu-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri, cari təmiri və servis xidmətləri haqqında bilik və təcrübəyə malik olan mütəxəssislər.

Mühəndis-proqramçı-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri haqqında biliyə malik olan mütəxəssislər.

– Psixoloq (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin bakalavr və ya magistr pilləsini psixologiya və klinik psixologiya ixtisası üzrə bitirmiş mütəxəssislər);

– Əyani fakültənin kurs rəisinin müavini və kurs rəisi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif istiqamətləri və hərbi ixtisas istiqamətləri üzrə bitirmiş daxili işlər orqanları əməkdaşları);

– Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin baş inspektoru (magistratura və doktorantura üzrə), elmi katibi və baş inspektor-korrektoru (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəssislər);

Müsabiqədə yaşı 35-dən yuxarı olmayan (elmi dərəcəyə malik mütəxəssislər yaşı 40-dək), həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün) və əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanları xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

***Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu ilin oktyabr ayının 1-dən noyabr ayının 15-dək http://www.mia.gov.az/index.php?/az/content/29875/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən doldurаraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.***

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qaliblərі müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaqdır.

Daxili işlər orqanları əməkdaşlarına məzuniyyətə çıxarkən və müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə bir aylıq əmək haqqı məbləğində pul müavinəti, DİN-in Tibb İdarəsinin Respublika Hospitalında, poliklinikalarında əməkdaşa və onun ailə üzvlərinə pulsuz tibbi xidmət, DİN-in «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinə yollayışın qiymətinin əməkdaşa 75 faizi, ailə üzvlərinə 50 faizi miqdarında imtiyaz, eləcə də xidmət zamanı şəhərdaxili ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə kimi əlavə güzəştlər verilir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-454-12-78, 590-97-52, 590-92-54.**

*Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Baş Kadrlar İdarəsi*

# YADDAN ÇIXMIR XATİRƏLƏR

***Əvvəli ötən sayımızda.***

***Məqsədimizi bilən millət vəkilimiz canla-başla müsahibəyə razılıq verdi. Hər il bura ailə üzvləri ilə gəldiyini qeyd edən müsahibim "Xəzri"nin sədasının sərhədlərimizdən kənarda eşidilməsinə də marağını gizlətmədi. Dedi ki, bu gün dünyada gözəl istirahət mərkəzləri var. Ancaq hər yerdə Xəzərin qumundan, buranın günəşindən yoxdur. Turistləri ölkəmizə cəlb edən Azərbaycan təbiətinə xas olan gözəlliklər, bizim qonaqpərvərliyimiz və ölkəmizdəki sabitlikdir.***

O, idman geyimində olsa da diqqət mərkəzindədir. Onlar üçün ayrılmış oyun yerləri, hovuzlar təmiz və təhlükəsizdir"...

Müsahibimizin nikbinliyi bizim də ovqatımıza sirayət etdi. Həm də ürəyimizi dolduracaq bir sevinclə gördüklərimizi tez qələmə almaq üçün bir guşədə yerimizi rahatlayıb qeydlərimizi etdik. Çünki "Ən uzun yaddaşdan qısa bir qeyd yaxşıdır"...

Yeri gəlmişkən, "Xəzri"də kitabxananın olmamasının indi fərqinə vardıq.

Yay ömrünü başa vursa da "Xəzri"dən və Xəzərdən ayrılmaq mümkün deyil. Fəsillər yerini dəyişsə də "Xəzri"nin ünvanı dəyişməyib. O, ilin bütün dövrlərində yenə də sevinclə, coşquyla bura üz tutanlara öz isti qucağını açır.

Müşahidələrimizə söykənib onu da demək istəyirik ki, Xəzər "Xəzri"nin sahilində özünü daha xoşbəxt və güvəncli hiss edir. Yazda da, yayda da, payızda da, qışda da yoluxmağa, baş çəkməyə gələnlər onu darıxmağa qoymurlar. Və son olaraq bu fikri də sizlərlə bölüşmək istəyirik: "Xəzri"çilərə "Bəs, özünüz harada istirahət edirsiniz", -deyəndə hamısı bir ağızdan : "Vətəndaşa xidmət etmək də bir istirahətdir",-cavabını verdilər...

xatirə üçün şəkil çəkdirməkdən imtina etmədi...

Növbəti müsahibim isə Maliyyə nazirinin müşaviri Yusif Heydərov oldu. Düzünü desək, "Xəzri"də polis əməkdaşlarından çox mülki şəxslər diqqətimi cəlb etdi. Onun "Xəzri" barəsindəki fikrini isə olduğu kimi diqqətinizə çatdırırıq: "Burda hər şey gözəldir, ayrı-seçkilik yoxdur. Əsas özəlliyi ailəvi istirahət mərkəzi olmasıdır və məhz buna görə düz beşinci ildir ki, bura üz tuturuq. Bütün personalın əsas diqqəti istirahətə gələnləri məmnun etməyə yönəlib. Gələnlər xoş əhval-ruhiyyə ilə burdan ayırılırlar. Hər bir turistik məkanın öz nöqsanları olsa da "Xəzri"də biz onları görmədik. Böyüklərlə yanaşı, uşaqlar

*Hafiz Təmirov,*
*polis mayoru*

# Oktyabrın 2-dən 8-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 117 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 69 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 71, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 1, borclu şəxs qismində axtarışda olan 28 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 51 fakt müəyyən edilmişdir.




Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Məmmədxan Çakıyevi yeni Daxili İşlər naziri təyin edib.

*****

***Cari ilin yay aylarında Türkiyədə həyata keçirilən anti-terror əməliyyatları nəticəsində ümumilikdə 608 terrorçu zərərsizləşdirilib. Bu barədə Türkiyə Daxili İşlər nazirinin köməkçisi İsmail Çataklı keçirdiyi mətbuat konfransında məlumat verib. Onun sözlərinə görə, aprelin 16-dan sentyabrın 30-dək ölkədə həyata keçirilən əməliyyatlar nəticəsində 608 terrorçu zərərsizləşdirilib.***

***Qeyd olunub ki, ölkədə terrorizmlə mübarizə istiqamətində əməliyyatlar fasiləsiz həyata keçirilir. Ölkə daxilində təhlükəsizlik çərçivəsində sentyabrda kənd yerlərində 10 min 38, şəhərlərdə isə 357 min əməliyyat həyata keçirilib. Təkcə sentyabrda təşkil olunan əməliyyatlar nəticəsində 184 terrorçu zərərsizləşdirilib. Onlardan doqquzu Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olub.***

***Məlumat verilib ki, sentyabrda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı 13 min 513 əməliyyat keçirilib. Nəticədə 10 tona yaxın narkotik maddə müsadirə edilib.***

*****

Rusiyada elektron sürücülük vəsiqələrinin verilməsi təşəbbüsü nəzərdən keçirilir. Bunu Rusiya DİN Dövlət Avtomobil Müfəttişliyinin rəhbəri Mixail Çernikov deyib. O bildirib ki, təşəbbüsə əsasən, sürücülük vəsiqələrinin elektron versiyasının yaradılması və onların smartfonlara inteqrasiya edilməsi üzərində işlər başlayıb.

Qeyd olunur ki, elektron vəsiqələr hazırkı sürücülük vəsiqələrinin alternativi olacaq.

Bununla belə, elektron sürücülük vəsiqələrinin nə vaxtdan tətbiq ediləcəyi barədə dəqiq məlumat verilməyib.

*****

***Oktyabrın 1-dən Türkiyədə "hava polisi" fəaliyyətə başlayıb. Bildirilir ki, "Hava polisi" sərnişin avianəqliyyatında fəaliyyət göstərəcək. Polis əməkdaşları uçuşları mülki formada müşayiət edəcək və hər təyyarədə azı iki polis olacaq.***

*****

Britaniya polisi "Facebook" və "WhatsApp"dakı yazışmaları oxuyacaq. "Facebook" sosial şəbəkəsi və "WhatsApp" messenceri istifadəçilərin yazışmalarını Böyük Britaniya polisinə ötürməli olacaq.

Müvafiq saziși ABŞ və Böyük Britaniya hökumətləri imzalayıb. Cari saziş terrorizm və pedofiliya da daxil olmaqla, ağır cinayətlərin araşdırılmasında kömək etməlidir.

Hazırda isə təhlükəsizlik xidməti məlumatları yalnız bilavasitə həyat üçün təhlükə olduğu təqdirdə əldə edə bilirlər.

*C.Natiq*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 18:30